"Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi kimsə üçün bunu qat-qat artırır. Allah (lütfü ilə) genişdir!" **("Bəqərə" surəsi, 261).**

Yaradan Rəbbinin adı ilə
OXU
№005 4-10 fevral 2011 ● 30 səfər - 6 r.ə 1432



Elşad MİRİ
elshadmiri@gmail.com

# Nümunəvi imam

**Burada "Xural" qəzeti ilə birgə təşkil etdiyimiz baş örtüyü ilə bağlı müzakirələr haqqında yazmaq istəyirdim. Orada dinin `d`sini bilmədən danışanlardan, beynəlxalq konvessiyalardan, konstitusiyamızdan, qanunlarımızdan xəbəri olmadan məktəblərdə baş örtüyü yasağına haqq qazandıranların haqsızlığından, kostyum geyinməyimi dinə zidd hal kimi təqdim etməyə çalışanlardan, ağzını açıb-yumduğu halda özü-özünü təkzib edənlərdən, tədbirin baş verməsini istəməyən sədr və rəhbərlərdən yazacaqdım.**

Amma yazmadım. Çünki mənfiliklərdən yazdıqca nikbinliyimə bədbinlik düşə biləcəyini nəzərə alıb yazmadım. Yazmadım ona görə ki, həmin çıxışların stenoqramlarını inşaAllah siz oxuyub fikirlərinizi yazacaq və qiymət verəcəksiniz...

Yazmamağımın bir səbəbi də əksər şeylərdə gözəllik görə bilmək və gözəl gördükcə həyatdan da həqiqi mənada ləzzət almaq istəyimə bir imamın səbəb olması oldu. Bu imam haqqında yazmamışdan səmimiyyətinizə güvənərək özümdən bir məqamı yazım.

Ötən gün yaxın dostumla bir xəyalım haqqında danışırdıq. Xəyalpərəst deyiləm, əksinə çox realist və hər şeyə nikbin baxan insanam. Sadəcə bu məsələ Azərbaycanımız üçün hələ ki, xəyal kimi, arzu olaraq qalır... Arzumdur ki, Azərbaycanımızda olan məscidlərimiz təkcə ibadət yeri deyil, həm də mərkəz kimi fəaliyyət göstərsinlər. Məsələn, bir insanın gedə biləcəyi hər yeri bir yerdə cəmləşdirən, ailələrin qaynayıb-qaynaşdığı, uşaqların və gənclərin enerjilərini tükətdiyi yerlər olsun. Mərkəzdə xüsusi kompüterləşdirilmiş kitabxana, uşaqlarımızın milli-mənəvi dəyərlərdə yetişdirildiyi bağça, oyun yerləri, gənclər üçün idman zalları, xarici dil və Quran kursları öyrədilən yerlər, üzgüçülük hovuzları, əmək fəaliyyətləri üçün maraqlı proqramlar, mühazirələrin keçirildiyi məkanlar qurulsun. Dünya mətbəxinin nümunələri olan yeməkxanası, mərkəzin bir neçə dildə internet saytı, forumu fəaliyyət göstərsin... Müsəlman olmayanların İslam haqqında məlumat ala biləcəkləri məkanlar və onlara onların dilində suallarına cavab verəcək mütəxəssislər çalışsın. Daha da maraqlısı, mərkəzin imamı ilə tenis oynadığımız yerdə azan oxunsun və oyunu yarımçıq qoyub dəstəmaz alıb gedək camaatla birlikdə namaz qılmağa... Namazdan sonra yarım saatlıq kitab oxuyaq, yaxud bir mövzu ətrafında müzakirələr aparaq və sair... Xeyli danışdıq, bunun da imkansız olmadığı qənaətinə gəldik. Sadəcə süni gündəmləri bir kənara qoyaraq, buna imkan yaradılaraq, məscidləri yas məclislərinin keçirildiyi yerlərdən çıxararaq və fədakarlıq edərək buna nail ola bilərik. Söhbətimizə burada üç nöqtə qoyub yuxarıda yazacağım yazının mövzusunu dəyişdirən imama keçək. Bu imam haqqında dünən internet saytlarında oxudum.

Deməli, bu imam Türkiyənin Bingöl şəhərinin Genc qəsəbəsinin Quba məscidinin imamı Səlahəddin Yalçındır... İmam bizim mollalara, axundlara, qazılara və bu sahədə çalışanlara nümunə ola biləcək bir davranış nümayiş etdirir... Səlahəddin Yalçın əvvəl məscidin tikintisinə rəhbərlik edir. İnşaat işinin yekunlaşmasından sonra 3,5 hektarlıq ərazinin Hollandiyada yaşayan sahibi ilə danışıb həmin yeri məscidə vəqf etməsinə nail olub. İmam indi məscidi həmin ərazi ilə birlikdə kitabxanası, kompüter otağı, tenis zalı və futbol sahəsi olan mərkəz halına gətirməyə başlayıb. Kitab nəşriyyatlarına məktublar yazaraq heç olmasa 5 kitab göndərmələrini və başqa nələri edə biləcəyi ilə bağlı fikirlərini bildirmələrini xahiş edib. Yalçın: "Cavanlarımızı zərərli maddələrdən qorumaq və terror təlәsinə düşməsindən uzaqlaşdırmaq istəyirik. Başımıza gələn müsibətlərdə oxumamağımızın payı çoxdur", - deyir. Universitet məzunu bir oğlu və orta məktəbdə təhsil alan bir qızı olan imam axşam namazı ilə işa namazları arasında insanları məscidə yığıb kitab oxuyurlar. İmam məscidin kitabxanasına dini məzmunlu kitablarla yanaşı, tarixi və ictimai əsərləri də yerləşdirir. "Məscid yol üstündə yerləşdiyi üçün tanımadığımız insanlar gəlib məscidimizdə həm namaz qılır, həm də istirahət edirlər. Onları da qonaq etmək istəyirik. İnsanlarımıza faydalı olmaq, ətrafımızdakı gənclərimizə yiyə durmaq üçün belə bir layihə fikirləşdik və tədricən hayata keçiririk. İmkanlarımız artdıqca, ingilis dili kimi kurslar da təşkil etməyi planlaşdırırıq", - deyir məscidin imamı, daha doğrusu mərkəzin rəhbəri Səlahəddin bəy!

Demək ki, mümkündür. Sadəcə bir yerdən başlamaq, cəhd göstərmək lazımdır. Təvəkkül Allahdandır... Və bu imam hər birimizə bu hərəkəti ilə nümunədir.

# QÜTBLƏRDƏ NAMAZ VAXTLARI

**Türkiyənin Süleymaniyyə fondu din və fitrət tədqiqatları mərkəzi tərəfindən şimal qütbü bölgələrində gündəlik namazların (5 vaxt) şərtlərinin araşdırılması və öz yerində müəyyənləşdirilməsi məqsədilə qütb dairəsinin daxilində yerləşən Norveçin Tromso şəhərinə bir heyət ezam edildi. Bu heyətdə fondun prezidenti professor Abdulaziz Bayındır və bir neçə nəfərdən ibarət texniki bir heyət də iştirak edirdi.**

İstanbul Universitetinin Astronomiya və Kosmos Tədqiqatları kafedrasinin müəllimi professor Adnan Ökten isə aparılan tədqiqatlarda elmi məsləhətçi kimi çıxış etdi. Həmin ərazidə iki gün ərzində lazımi müşahidələri aparan heyət elmi məlumatlara əsasən namaz vaxtlarının hesablanmasını da həyata keçirdi və bu bölgələrdə 5 vaxt namazın qılınmasının mümkünlüyünü sübut etdi. Bütün müşahidə və araşdırmalar videokameralar vasitəsilə qeyd edildi.




Tromso şəhərində aparılan elmi tədqiqatların nəticələri fond tərəfindən keçirilən mətbuat konfransında kütləvi informasiya vasitələri və ictimaiyyətə elan edildi. Mətbuat konfransında professor Abdulaziz Bayındır, dosent Servet Bayındır və professor Adnan Ökten də iştirak edirdilər.



Qütb bölgələrində namaz vaxtları məsələsinin uzun müddətdən bəri (xüsusilə internet şəbəkəsində) mübahisə doğuran bir məsələ olduğunu qeyd edən Abdulaziz Bayındır günəşin doğmadığı və dünyanın insanların yaşadıqları ən şimalda yerləşən ərazilərindən biri olan Tromso şəhərinə bir heyət kimi getdiklərini bildirdi. O, günəşin doğmadığı vaxtlarda namaz vaxtlarının nə cür olacağına dair müşahidə apardıqlarını ifadə etdi. Abdulaziz Bayındır sözlərinə davam edərək belə dedi: "Gündəlik 5 vaxt namaz Türkiyədə necə müəyyənləşdirilirsə, orada da eyni şərtlərə əsasən müəyyən edilir. Arada kiçik bir fərq var: O da bundan ibarətdir ki, səhər vaxtı günəşin doğuşu, axşam da batmağı müşahidə olunmur."

## NƏTİCƏLƏR QURAN AYƏLƏRİNƏ UYĞUNDUR

Dərin vadi və qobularda da buna oxşar bir halda günün çıxması və batmasının müşahidə olunmadığını deyən Bayındır: "Bu kimi yerlərdə şərq tərəfdə günəşin doğub-doğmadığını müəyyən etmək üçün qərb tərəfdə aydınlığın başlanması əsas götürülür. Əgər qərb tərəfdə aydınlıq müşahidə olunursa, bu o deməkdir ki, "gün çıxıb". Biz bu meyarları Tromso şəhərində gördük. Orada günəşin görülməməyi eynilə Türkiyə və ya başqa bir yerdə günəşin dağların arxasında gözdən itməsi kimi bir şeydir", - dedi.

Abdulaziz Bayındır apardıqları müşahidələri Qurandakı ayələrdən misallar verməklə izah etdi. Əlavə olaraq dedi ki, biz ilk dəfə həm astronomiya, həm dini məsələlərdə, həm də texniki sahədə ixtisaslaşmış bir heyətlə Tromsoya getdik və bu müşahidələri həyata keçirdik. Bütün bunların ən mühüm cəhəti odur ki, müşahidələrin nəticələri Quran ayələri ilə üst-üstə düşür.

Abdulaziz Bayındır öz çıxışını belə bitirdi: "Tromsoda bir hissəsi yerli xalqdan olmaqla təqribən 800 müsəlman yaşayır. Onlardan nəyə əsasən namaz qıldıqlarını soruşduq. Cavab olaraq dedilər ki, burada namaz vaxtları yaranmır. Biz Məkkə şəhərinin namaz vaxtlarına əsasən namaz qılırıq. Biz də elə oradaca bir iclas keçirdik və bildirdik ki, Tromsoda da namaz vaxtları olur. Bunu eşidənlər çox təəccübləndilər."

Mətbuat konfransında professor Adnan Ökten də çıxış etdi: "Biz bu məsələləri xeyli araşdırdıqdan sonra məhz Tromso şəhərini seçdik. Bu tədqiqatları həm dini, həm də astronomik cəhətlərdən qiymətləndirmək olar. Onu deyim ki, bu məsələnin dini əsasları Süleymaniyyə fondunun səlahiyyətli şəxsləri tərəfindən müəyyən edildi. Mən isə həmin meyarların astronomik baxımdan meydana gəlib gəlmədiyini yoxladım. Biz bu məsələdə bir astronom kimi günəşin harada olduğunu müəyyən edib gələcəkdə hazırlanması planlanan bir təqvimi buna oxşar bir çox müşahidəyə əsasən hazırlaya bilərik. Yəni, bu meyarları hər yerdə tətbiq etmək mümkündür."

## DİNİ İŞLƏR ÜZRƏ İDARƏ SƏHVƏ YOL VERİR

Mətbuat konfransındakı çıxışlardan sonra professor Abdulaziz Bayındır mətbuat nümayəndələrinin suallarına cavab verdi. Jurnalistlərdən biri Türkiyədəki dini işlər idarəsinin Norveçin Tromso şəhəri üçün namaz vaxtlarını necə hesabladığını soruşdu. Bayındır bildirdi ki, qütb bölgələrindəki namaz vaxtları ilə əlaqədar olaraq indiyə qədər bir müqayisə aparılmayıb və dini məsələlər idarəsinin tətbiq etdiyi ölçülər səhvdir. Sonra o, sözlərinə belə davam etdi:

"Biz bu müşahidələrimizi bir müddət də davam etdirəcəyik. Təqvim ancaq bu müşahidələr başa çatdıqdan sonra hazır olacaq. Şəxsən mən dini məsələlər üzrə idarənin əməkdaşları ilə birlikdə 3 il ərzində müxtəlif müşahidələr apardım. Mən elə o vaxt da onlara deyirdim ki, sizin əsas götürdüyünüz meyarlar düzgün deyil. Təkcə din işləri idarəsi deyil, bütün təşkilatlar həmin səhv ölçülərə əsasən hərəkət edirlər. Biz dəqiq surətdə: "Filan qədər vaxt səhvdir, bu qədər səhvə yol verilib", - deyə bilmək üçün gərək öz müşahidələrimizi yekunlaşdıraq. Ancaq bundan sonra qəti bir söz söyləmək mümkün olacaq".